AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
Bakı Dövlət Universiteti
Tarix fakültəsi

# HEYDƏR ƏLİYEV
# və
# Qafqazda sülh prosesi

Magistr hazırlığı üçün

# P R O Q R A M

Bakı -2003

İRADƏ HÜSEYNOVA

# HEYDƏR ƏLİYEV
və
Qafqazda sülh prosesi
Magistr hazırlığı üçün
PROQRAM

ИРАДА ГУСЕЙНОВА

# ГЕЙДАР АЛИЕВ
и мирный процесс
на Кавказе
ПРОГРАММА
для подготовки магистров

İRADA HUSEYNOVA

# HEYDAR ALIYEV
and the Peace Process
in the Caucasus.
The Training
PROGRAM
for the Holders of the Master's Degree

«TƏHSİL»
Baki — 2003

*"Qafqaz indi bütün dünyanın diqqət mərkəzindədir. Ona görə də Qafqazda gedən prosesləri düzgün istiqamətə, sülh istiqamətinə yönəldib Qafqazda sülhə, əmin-amanlığa nail olmaq çox böyük, müqəddəs məqsəddir, ali məqsəddir və biz bu məqsəd uğrunda bundan sonra da əzmlə çalışacağıq".*

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*"The Caucasus is now in the center of the world's attention. That is why the cherished ami is to direct the processes, which take place in the Caucasus, into the correct, peaceful way, to achieve peace and prosperity. These are the most important aims and we shall do everything to fulfil them ".*

**Heydar Aliyev**
**The President of the Azerbaijan**
**Republic**

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

**Bakı Dövlət Universiteti Tarix fakültəsi**

# İradə Hüseynova

# HEYDƏR ƏLİYEV
# və Qafqazda sülh prosesi

## Magistr hazırlığı üçün

# PROQRAM

*Azərbaycan Respublikası Təhsil*
*Nazirliyinin 25.02.2003-cü il tarixli*
*180 saylı əmri ilə təsdiq edilmişdir.*

«TƏHSİL» NƏŞRİYYATI
Bakı — 2003

**84.2Az**
**H95**

| | |
|---|---|
| **Müəllif:** | **İradə Hüseynova**<br>*tarix elmləri namizədi,*<br>*dosent* |
| Redaktor: | *prof*. Ə.İ.Muxtarov |
| Rəyçilər: | *dos*. G.B.Useynova<br>*dos*. Q.Ə.Əliyev |

Proqram Qafqazda sülh prosesinin vacibliyini doğuran sosial-siyasi, iqtisadi və mədəni amillərin, «Ümumi Qafqaz evi» ideyasının, Qafqazda sülh, əmin-amanlıq və təhlükəsizliyin, Qafqazın dünyanın inkişaf etmiş dövlətləri ilə inteqrasiyası kimi qlobal məsələlərin Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ideyaları işığında kompleks şəkildə öyrənilməsinə həsr edilmişdir. Proqramda tarixşünaslıqda ilk dəfə olaraq Heydər Əliyevin «Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!» konsepsiyası əsasında Qafqaz dövlətlərinin və xalqlarının sülh, əmin-amanlıq və milli təhlükəsizliyi naminə apardığı ardıcıl mübarizənin, həyata keçirdiyi titanik fəaliyyətin əsas istiqamətləri ümumiləşdirilir. Proqram ali təhsilin magistratura pilləsində təhsil alan tarixçilər, Qafqazşünaslar, politoloqlar, diplomatlar üçün nəzərdə tutulur. Proqram Azərbaycan, rus və ingilis dillərində nəşr edilir.

**H 95** **Hüseynova İradə**. Heydər Əliyev və Qafqazda sülh prosesi. Magistr hazırlığı üçün proqram. Bakı, «Təhsil», 2003, 112 səh.

$$H\frac{4702060204}{053}2003$$

© «Təhsil», 2003

## ÖN SÖZ

*"Azərbaycanda, bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması ən ümdə arzumuzdur".*

***HEYDƏR ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Bəşər sivilizasiyasının ən qədim yaşayış məskənlərindən biri olan Qafqaz etnodil, etnodemoqrafik, etnososial, etnomədəniyyət və etnik baxımdan dünyanın unikal bölgəsidir. Qafqaz geosiyasi mövqeyinə görə də Şərqlə Qərb, Cənubla Şimal arasında mühüm strateji məkanda yerləşir. Müasir mərhələdə - XXI əsrin başlanğıcında Qafqaz dünya siyasətində geostrateji bölgə kimi daha önəmli yer tutmaqdadır. Tarixən də Qafqaz böyük imperiyaların, aparıcı dövlətlərin maraq və mənafelərinin kəsişdiyi, toqquşduğu bölgələrdən biri olmuşdur. Zəmanəmizdə də Qafqaz regionu dünyanın aparıcı dövlətlərinin milli maraqlarının, dövlət mənafelərinin kəsişdiyi coğrafi məkanlar içərisində öncüllərdən sayılır. Çünki Qafqaz regionu Asiya ilə Avropanı iqtisadi və mədəni cəhətdən bir-birinə qovuşduran, inteqrasiyaya yardım edən körpü rolunu oynayır. Bu mənada Qərb və Şərq sivilizasiyalarının bir-birinə inteqrasiyasında, qoca Şərqin qədim və zəngin klassik mədəni irsinin Qərbin yeni, müasir texnologiyaları ilə daha da zənginləşməsində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi müstəsna əhəmiyyət daşıyır. Digər tərəfdən, Xəzər dənizindəki karbohidrogen ehtiyatlarının, Orta Asiya və Qazaxıstan xammalının, hazır məhsullarının Qərbə nəqlində Qafqaz bölgəsi həlledici rola malikdir.

Bütün bımları nəzərə alan ABŞ-ın və Qərb dövlətlərinin Qafqaz siyasətində Cənubi Qafqaz respublikalarının müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, bu regionda demokratiyanın və bazar iqtisadiyyatı münasibətlərinin inkişafına, Şimali Qafqazda qeyri-sabitliyin aradan qaldırılmasına, Qafqaz dövlətlərinin Qərbə inteqrasiyasına, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasına və inkişaf etdirilməsinə, nəhayət, Xəzərin enerji ehtiyatlarının Qərbə nəqlinə yardım göstərilməsi əsas yer tutur.

Bu da inkarolunmaz həqiqətdir ki, Qafqaz mürəkkəb etnik münaqişələrin çoxluğu və miqyası baxımından da unikal coğrafi məkanlardan biridir. Belə bir şəraitdə dünyanın ən qaynar nöqtələrindən birinə çevrilən Qafqazda sülh, təhlükəsizlik, sabitlik təkcə region ölkələri üçün deyil, bütövlükdə Asiya və Avropa ölkələri üçün də faydalı və əlverişli olub həyati əhəmiyyət daşıyır. Qafqazda sülhü və sabitliyi təmin etmədən Şərqlə Qərb, Cənubla Şimal arasında, həmçinin region ölkələrinin bir-biri ilə iqtisadi, siyasi və mədəni inteqrasiyasından söhbət gedə bilməz. Bütün bu tarixi, ictimai-siyasi, iqtisadi və mədəni amillər deməyə əsas verir ki, "Qafqazda sülh, bölgədə sülh, dünyada sülh!" modeli bu gün beynəlxalq aləmi düşündürən başlıca amillərdən, dünyanı narahat edən qlobal problemlərdəndir.

Bu gün Qafqazda sülhün, əmin-amanlığın, siyasi sabitliyin, iqtisadi və mədəni inteqrasiyanın əsas təminatçısı və alovlu təbliğatçısı, çağdaş dövrdə "Qafqazda sülh", "Ümumi Qafqaz evi" ideyasının və konsepsiyasının banisi və bu konsepsiyanı həyata keçirən əsas lider missiyasını Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yerinə yetirir.

Təsadüfi deyildir ki, bu məsələdən danışarkən Gürcüstan Prezidenti Eduard Şevardnadze demişdir: "Prezident Heydər Əliyev Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısıdır".

"Azərbaycanda, bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması bizim ən ümdə arzumuzdur", - deyə öz xarici siyasət xəttini bütün dünyaya bəyan edən Heydər Əliyevin Qafqazda sülh ideyasının əsasında "Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!"

konseptual modeli durur. Bu, tarixi həqiqətdir ki, Heydər Əliyev bütün Qafqaz bölgəsində sülhün yaradılması təşəbbüsü ilə çıxış etmiş, onun təklifi ilə imzalanmış "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Tbilisi Bəyannaməsində (1996) "Ümumi Qafqaz evi" ideyasını dəstəkləmiş, ATƏT-in İstanbul zirvə görüşündə (1999) "Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq paktı"nın yaradılması təklifi ilə çıxış etmiş, bu təklif bir çox region dövlətləri tərəfindən müdafiə olunmuşdur. Bütün bu geniş və perspektivli fəaliyyətinə görə Qafqaz xalqları Heydər Əliyevi "Ümumqafqaz evinin ağsaqqalı" hesab edirlər...

Müstəqil Azərbaycanın ali məktəblərində, xüsusilə də Bakı Dövlət Universitetinin Qafqaz tarixi fənni üzrə ali təhsilin magistratura pilləsində təhsil alan magistrlər - gələcək tədqiqatçı-tarixçilər, qafqazşünaslar üçün tədris planında 28 saatlıq mühazirə, 26 saatlıq praktik məşğələ, bütövlükdə 54 saat həcmində "Heydər Əliyev və Qafqazda sülh prosesi" üzrə xüsusi kurs nəzərdə tutulmuşdur.

Azərbaycan tarixşünaslığında və bütövlükdə Qafqazşünaslıqda ilk dəfə olaraq tərtib olunan bu proqram Heydər Əliyev və Qafqazda sülh prosesi problemlərinin kompleks şəkildə, sistemli tədqiqi, tədrisi və öyrənilməsinə həsr edilir.

İnanırıq ki, kursun tədrisi magistrlərin milli dövlətçilik təfəkkürünün formalaşmasına, Qafqazşünaslığın bir çox problemlərinin dərindən mənimsənilməsinə, ən başlıcası isə tarixi şəxsiyyət, böyük siyasi və ümum-milli lider olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bölgədə sülhün, əmin-amanlığın təmin olunması və xalqların, dövlətlərin inteqrasiyası yolundakı çoxşaxəli, titanik fəaliyyetinin, zəngin dövlətçilik təcrübəsinin öyrənilməsinə və elmi araşdırılmasına yaxından kömək edəcəkdir.

***Müəllif***

## 1. Kursun predmeti, mənbələri, öyrənilməsi vəziyyəti və vəzifələri

"Heydər Əliyev və Qafqazda sülh prosesi" kursunun predmeti, məzmunu və mahiyyəti. Problemin aktuallığı. Heydər Əliyevin irəli sürdüyü "Vətəndə sülh, regionda sülh, dünyada sülh!" modelinin fəlsəfi, sosioloji, tarixi, mədəni, iqtisadi, siyasi məzmunu və aspektləri. Qafqazda sülh probleminin milli, regional, beynəlxalq və qlobal aspektləri. Sülh və milli təhlükəsizlik, sülh və mədəni tərəqqi, sülh və iqtisadi yüksəliş, sülh və inteqrasiya məsələləri.

Qafqaz çağdaş dünya siyasətində. Qafqazda etnik və regional konfliktlər. Qafqaz və Avropa, Qafqaz və Asiya. Şərq-Qərb sivilizasiyalarının qarşılıqlı təmas və inkişafında Qafqazın yeri və rolu. Qafqazın qlobal problemlərinin həlli sahəsində Heydər Əliyev fenomeninin əhəmiyyəti və rolu.

Kursun məqsədi və əsas problemlərinin "Sülh mədəniyyəti" anlayışı ilə bağlılığı. BMT-nin "Sülh mədəniyyəti on illiyi (2001-2010)" proqramı və müasir Qafqaz münaqişələrinin həlli perspektivləri.

Heydər Əliyev və Qafqazda sülh prosesi probleminin tədqiqi, öyrənilməsi və tədrisi vəziyyəti. Bu sahədə tarixşünaslığın, tarix elminin vəzifələri və gələcək perspektivləri.

## 2. Sovet inzibati-amirlik sisteminin tənəzzülü. Suverenlik meyllərinin güclənməsi

Sovet idarəetmə sistemində böhran və tənəzzülün başlanması. Tənəzzüldən çıxmaq uğrunda mübarizə: yenidən-

qurma, aşkarlıq və demokratiya "axtarışları". M.S.Qorbaçovun sovet inzibati-amirlik sistemindən yeni demokratik təfəkkürlü idarəetməyə keçid sahəsində "islahatları", onun iflası. Milli münasibətlərdə gərginliyin artması. Xalqların və millətlərin suverenlik meyllərinin güclənməsi.

## 3. SSRİ-nin dağılması ərəfəsində Qafqazda ictimai-siyasi vəziyyət

Sovet sosialist rejimində böhran. Sovetlər Birliyində mərkəzdənqaçma meyllərinin güclənməsi. Qafqazda və digər müttəfiq, muxtar respublikalarda etnik proseslərdə baş verən dəyişikliklər.

Qafqaz xalqları və suverenlik meylləri. Moskva hökumətinin - Kremlin məsələyə münasibəti.

Qafqaz xalqlarının milli-azadlıq hərəkatının başlanması, milli-azadlıq və müstəqillik uğrunda mübarizəsi. SSRİ rəhbərliyinin Qafqaz siyasəti: etnik separatizmin qızışdırılması və milli münaqişə ocaqlarının yaradılması.

## 4. Qafqaz xalqlarına qarşı Sovet imperiyasının repressiv tədbirləri. Heydər Əliyevin bu məsələlərə münasibəti və mövqeyi

Qafqaz xalqlarının milli-azadlıq hərəkatının güclənməsi və dövlət müstəqilliyi uğrunda mübarizəsinə qarşı sovet rejiminin repressiv tədbirləri. Tbilisidə gürcü xalqının 9 aprel 1989-cu il tarixli nümayişinin sovet hərb maşınının köməyi ilə faciəli şəkildə yatırılması.

Sovet imperiyasının rəhbərliyi tərəfindən Bakıya qoşun yeridilməsi. 20 Yanvar 1990-cı il qanlı Bakı qırğını. Azərbaycanda milli-azadlıq hərəkatını boğmaq cəhdləri. Azərbaycan xalqına qarşı törədilmiş faciənin dünyaya çatdırılmasında Heydər Əliyevin rolu. Moskvadakı Azərbaycan nümayəndəliyində Heydər Əliyevin 20 Yanvar Bakı qırğınını pisləyən bəyanat verməsi, sovet rəhbərliyini ittiham etməsi. Bu bəyanatın tarixi əhəmiyyəti. Heydər Əliyevin Sov. İKP sıralarından istefa verməsinin səbəbləri; onun Sovet rəhbərliyinin yeritdiyi etnik separatizm siyasətinə etirazı.

## 5. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü. Dağlıq Qarabağda baş verən hadisələr

SSRİ-nin dağılması ərəfəsində Ermənistanda millətçiliyin və separatizmin güclənməsi. "Daşnaksütyun" partiyasının yenidən canlanması: ərazi iddiaları və "milli müqəddərat" müstəvisində separatizmin dəstəklənməsi. Bədnam "Oçaq" əsərinin erməni millətçiliyinin qızışdırılmasında "rolu".

Yerevanda "Qarabağ komitəsi" və Dağlıq Qarabağda "Krunk" təşkilatlarının (1987) yaradılması. Dağlıq Qarabağda "Miatsum" ("Birləşmə") millətçi hərəkatının başlanması (8 fevral 1988).

Ermənistan tərəfindən qızışdırılan və hərbi yardımla dəstəklənən Qarabağ konfliktinin Ermənistan və Azərbaycan arasında elan olunmamış müharibəyə (fevral 1988-ci ildən) çevrilməsi. Ermənistan Respublikasının AH Soveti tərəfindən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında antikonstitusion qərarın (15 iyun 1988) qəbul edilməsi.

Qarabağ müharibəsinin şiddətlənməsi. Azərbaycanlıların DQMV-dən çıxarılması. Dağlıq Qarabağ ətrafındakı rayonların rus hərb maşınının fəal yardımı ilə Ermənistan hərbi birləşmələri tərəfindən işğalı. Xocalı faciəsi (26 fevral 1992).

Dağlıq Qarabağ konflikti üzrə ATƏT-in Minsk qrapunun (iyun 1992) yaradılması, onun fəaliyyəti. Dağlıq Qarabağ konfliktinin beynəlxalq problemə çevrilməsi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəsə (12 may 1994) nail olunması. Məsələnin sülh yolu ilə həlli istiqamətində Heydər Əliyevin fəaliyyəti.

ATƏT-in Lissabon sammitində (1996, dekabr) Qarabağ probleminin sülh yolu ilə həlli prinsiplərinin müəyyənləşdirilməsi. Dağlıq Qarabağ düyününün həlli yolunda ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Fransa və Rusiya Federasiyasının fəaliyyəti.

## 6. Qafqazda suveren dövlətlərin yaranması

Qafqaz xalqlarının suverenlik və müstəqillik uğrunda mübarizəsinin nəticələri. Cənubi Qafqazda müstəqil, suveren dövlətlərin yaranması. Müstəqil Gürcüstanın (9 aprel 1991), Ermənistan Respublikasının (21 sentyabr 1991) və Azərbaycan Respublikasının (oktyabr, 1991) elan olunması, onların müstəqilliyinin beynəlxalq birlik tərəfindən tanınması. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın (18 oktyabr 1991) qəbul edilməsi, dövlət müstəqilliyi haqqında referendumun (dekabr 1991) keçirilməsi.

Naxçıvan Muxtar Respublikası Məclisinin sədri Heydər Əliyevin müstəqillik uğrunda mübarizəsi, Naxçı-

vanda milli dövlətçilik atributlarının (üçrəngli bayraq) qəbulu (17 noyabr 1990) sahəsindəki xidmətləri. Naxçıvan MR-in SSRİ-nin tərkibindən çıxması haqda qərarın qəbulu. Rusiya Federasiyası tərkibində Şimali Qafqaz respublikalarının statusunun yüksəldilməsi. Şimali Qafqazdakı muxtar qurumların Rusiya Federasiyası ilə münasibətləri.

## 6. Cənubi Qafqaz dövlətləri və Müstəqil Dövlətlər Birliyi

Müstəqil Dövlətlər Birliyinin (8 dekabr 1991) yaradılması. Rusiya Federasiyası, Ukrayna və Belorus prezidentlərinin MDB-nin yaradılmasına dair "Belovejsk sazişi" və SSRİ-nin süqutu. Ermənistanın MDB-yə daxil olması. Gürcüstan və Azərbaycanın MDB-yə qəbula ehtiyatla yanaşmalarının səbəbləri. Gürcüstan və Azərbaycanda siyasi hakimiyyətdə böhran. Rusiya Federasiyasının Gürcüstan və Azərbaycana təzyiqləri.

Eduard Şevardnadzenin Gürcüstanda, Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışları. Gürcüstan və Azərbaycanın (sentyabr 1993) MDB-yə daxil olmaları. Rusiya Federasiyasının birtərəfli qaydada MDB üzvü olan Ermənistanı sürətlə silahlandırmasının Azərbaycanın və Gürcüstanın milli təhlükəsizliyi üçün təhlükə doğurması.

MDB-nin siyasi birlik funksiyasının özünü doğrultmaması və iqtisadi təşkilat statusuna keçid cəhdləri. MDB və azad iqtisadi zona yaradılması məsələsi. MDB və Cənubi Qafqaz dövlətlərinin iqtisadi və mədəni inteqrasiyası problemləri.

## 7. Qafqazda etnik konfliktlər. Heydər Əliyevin konfliktlərin həlli istiqamətində fəaliyyəti və rolu

SSRİ-nin süqutundan sonra Qafqazda millətlərarası və etnik zəmində qarşıdurmalar. Bölgənin əsas etnik münaqişələri: erməni-Azərbaycan, abxaz-gürcü, osetin-gürcü, erməni-gürcü, çeçen-rus, osetin-inquş və s. etnik münaqişələri doğuran səbəblər. Qafqazda etnik münaqişələr və "milli müqəddəratı təyinetmə" problemi. Etnik münaqişələr və ərazi iddiaları. Ermənistanın Azərbaycana və Gürcüstana qarşı ərazi iddiaları. Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və "Çeçen problemi"nin həlli məsələsində "Qafqaz dördlüyü" (Rusiya Federasiyası, Gürcüstan, Azərbaycan, Ermənistan) prezidentlərinin səyləri.

Qafqazda, cümlədən Cənubi Qafqazda sülhün, sabitliyin təmin olunması və etnik münaqişələrin aradan qaldırılmasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rolu. Heydər Əliyevin "Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!" konsepsiyasının mahiyyəti.

## 9. Heydər Əliyev və Qafqazda daxili dialoqun yaranması

1996-cı il martın 8-də Azərbaycan və Gürcüstan prezidentləri tərəfindən Tbilisi Bəyannaməsinin imzalanması. "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan Bəyannaməsi dinc və sabit Qafqaz uğrunda hərəkatda ilk uğurlu addım kimi. Ümumi Qafqaz evinin təməlini qoyan, əməkdaşlıq və daxili

dialoqun başlanğıcı olan tarixi sənəd kimi Tbilisi Bəyannaməsinin əhəmiyyəti. "Prezident Heydər Əliyev Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısıdır" (E.Şevardnadze) həqiqətinin əsas aspektləri.

Heydər Əliyev və Qafqazda etnik konfliktlərin, cümlədən Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ uğrunda Ermənistan tərəfindən süni surətdə qızışdırılan elan olunmamış müharibənin, həmçinin gürcü-abxaz, gürcü-osetin, çeçen-rus münaqişələrinin sülh yolu ilə həlli istiqamətində Heydər Əliyevin təşəbbüsləri.

## 10. Heydər Əliyev və "Ümumi Qafqaz evi" ideyasının inkişafı

Heydər Əliyevin "Ümumi Qafqaz evi" ideyasının məzmunu və mahiyyəti. Qafqazda sülhün, sabitliyin qorunmasını şərtləndirən amillər. Qafqazda sülh və iqtisadi inteqrasiya. Qafqaz xalqlarının iqtisadi və mədəni inteqrasiyasında sülhün və təhlükəsizliyin rolu. Qafqazda sülh inteqrasiyanın əsas şərti kimi.

"Ümumi Qafqaz evi" və Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi. TRASEKA proqramı və onun perspektivləri. Bu proqramla bağlı Brüssel Bəyannaməsinin (may 1993) imzalanması. "Əsrin müqaviləsi" (20 sentyabr 1994) və Qafqazda sülh problemi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri Qafqazda təhlükəsizliyin, sülhün, sabitliyin təminatı kimi. Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri və ABŞ-ın energetika nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikintisinin əsasının (18 sentyabr 2002)

qoyulması. Bakı-Tbilisi-Ərzuram qaz kəməri layihəsinin reallaşması yolunda aparılan işlər.

Ermənistanın beynəlxalq layihələrdən kənarda qalması onun yeritdiyi militarist siyasətin, terroru və separatizmi dəstəkləməsinin nəticəsi kimi. Rusiya Federasiyası tərəfindən Ermənistanın sürətlə silahlandırılması "Ümumi Qafqaz evi"nin yaranması yolunda əsas maneələrdən biri kimi. Heydər Əliyevin "Ümumi Qafqaz evi" ideyasının beynəlxalq səviyyədə dəstəklənməsi və müdafiə olunması. Qafqaz bölgəsində və dünyada sülhün qorunması naminə Azərbayan və Gürcüstanın beynəlxalq antiterror koalisiyada iştirakı və onların antiterror əməliyyatlarını dəstəkləməsi.

## 11. Azərbaycan-Gürcüstan münasibətlərinin möhkəmlənməsində Heydər Əliyev faktoru

Azərbaycan-Gürcüstan münasibətləri tarix və müasirlik kontekstində. Azərbaycan Respublikası ilə Gürcüstanın münasibətləri strateji müttəfiqlik müstəvisində. Azərbaycan Respublikası ilə Gürcüstan arasında imzalanan sosial, iqtisadi, mədəni, hərbi sahədə əməkdaşlığa dair saziş və müqavilələr haqqında. Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstana, Gürcüstan Prezidenti Eduard Şevardnadzenin Azərbaycana rəsmi səfərləri. Heydər Əliyev və Eduard Şevardnadze arasında dostluğun və ənənəvi əməkdaşlığın Qafqazda sabitliyin möhkəmləndirilməsi sahəsində rolu. Gürcüstanda yaşayan azərbaycanlıların və Azərbaycanda yaşayan etnik gürcülərin mədəni inkişafında bu amilin rolu və əhəmiyyəti.

## 12. Qafqazda sülh və əməkdaşlığın inkişafında Heydər Əliyevin xidmətləri

Qafqazda sülh və əməkdaşlığın inkişafı sahəsində Heydər Əliyevin xidmətləri. Tbilisi Bəyannaməsindən (8 mart 1996) Bakı Bəyannaməsinə (7-8 sentyabr 1998) doğru. ATƏT-in zirvə toplantısında Heydər Əliyev tərəfindən "Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq paktı"nın (İstanbul, dekabr 1999) yaradılması ilə bağlı təşəbbüsün irəli sürülməsi, onun sammit iştirakçıları tərəfindən müdafiə olunması.

Qafqazda sülh və təhlükəsizliyin təmin olunmasında; Azərbaycan-Rusiya münasibətlərinin rolu. RF-nin Prezidenti Vladimir Putinin Azərbaycana (yanvar 2001) və Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiyaya son rəsmi səfəri: Moskvaya (24 yanvar 2002), Peterburqa (8 iyım 2002) və Moskvaya (21 sentyabr 2002) işgüzar səfərləri zamanı Qafqazda sülh məsələsinin müzakirə olunması. "Qafqaz dördlüyü"ndə RF-nin aparıcı rolu.

Azərbaycan-Dağıstan əlaqələrinin möhkəmlənməsində Heydər Əliyevin rolu. Azərbaycanla Rusiya Federasiyasının Şimali Qafqaz respublikaları arasında əməkdaşlığın inkişafı. Qafqazda dövlətlərarası və millətlərarası əməkdaşlığın inkişafında Heydər Əliyevin rolu.

"Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasına dair Saziş" və Bakı Bəyannaməsinin (7-8 sentyabr 1998-ci il, Bakı ş.) Qafqaz dövlətlərinin bir-biri ilə, həmçinin Qafqazın Avropa və Asiya dövlətləri ilə iqtisadi və mədəni əməkdaşlığa xidmət etməsi.

Heydər Əliyevin Qafqazda və bölgədə sülh uğrunda apardığı məqsədyönlü fəaliyyətə görəTürkiyə Cümhuriy-

yətinin Beynəlxalq Atatürk Sülh Mükafatına (Ankara, 1999, 1 noyabr) layiq görülməsi.

Heydər Əliyevin türk-müsəlman sivilizasiyasını təmsil edən böyük dövlət xadimi kimi Rusiyanın "Martin" nəşriyyatının tərtib etdiyi biblioqrafik kitabda Cənubi Qafqazın ən yüksək reytinqinə malik lider olması faktının etiraf (23 yanvar 2003) edilməsi.

## 13. Böyük İpək Yolunun bərpasında Heydər Əliyev amili

Böyük İpək Yolu tarix və müasirlik kontekstində. "Böyük İpək Yolu keçmişdən başlasa da, gələcəyə gedən yoldur. O, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaqdır" (Heydər Əliyev) müddəasının gerçəkləşdirilməsi, reallıqlar, perspektivlər. TRASEKA proqramı və Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi. Heydər Əliyevin təşəbbüsü ilə Böyük İpək Yolunun bərpası üzrə 32 dövlət və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakıda (7-8 sentyabr 1998) beynəlxalq konfransın keçirilməsi. Onun qəbul etdiyi əsas qərarlar, Bakı Bəyannaməsinin tarixi əhəmiyyəti.

Heydər Əliyevin Böyük İpək Yolunun bərpası yolundakı xidmətlərinə görə Türkiyədə "İpək Yolu" mükafatına layiq görülməsi.

Böyük İpək Yolu və Qafqazda iqtisadi inteqrasiya problemləri. Qafqazda azad iqtisadi zonanın yaradılması ideyası, onun gələcək perspektivləri.

## 14. Heydər Əliyev və Qafqazda milli-mənəvi dəyərlərin inkişafı. "İslam sivilizasiyası Qafqazda" beynəlxalq simpozium

Qafqaz müxtəlif dini konfessiyaların, müxtəlif milli-mənəvi dəyərlərin qovuşduğu unikal region kimi. Qafqazda islam və islami dəyərlər. Qafqazda xristianlıq. Qafqazda islam "təməlçiliyi": tarix və müasirlik, uydurmalar və reallıqlar.

"Dini-mənəvi dəyərlərdən səmərəli istifadə olunması hər bir ölkə, hər bir xalq, hər bir din üçün çox əhəmiyyətlidir" (Heydər Əliyev). Bakıda keçirilən "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusunda beynəlxalq konfrans və Qafqaz müsəlmanlarının X qurultayı (oktyabr 1998), onların əhəmiyyəti.

Bakıda keçirilən Qafqazda islam sivilizasiyasına dair beynəlxalq simpozium (dekabr 1998): islami dəyərlər və milli-mənəvi tərəqqi problemləri.

Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunub saxlanması, inkişaf etdirilməsinə dair bəyanatı (13 avqust 2001-ci il), onun tarixi və praktiki əhəmiyyəti.

*1-ci əlavə*

## "Heydər Əliyev və Qafqazda sülh prosesi" kursu üzrə magistrlər üçün tövsiyələr

Təqdim olunan Proqram hazırda qüvvədə olan və ali təhsilin ikinci pilləsi üzrə magistratura təhsil proqramları, mütəxəssisin gələcək fəaliyyəti, elmi-tədqiqat işlərinin aparılması, magistrlik dissertasiyası işinin istiqamətləri mexanizmini tənzimləyən "Ali təhsil istiqamətləri və ixtisasların siyahısı"na uyğun olaraq tərtib edilmişdir. Proqramda nəzərdə tutulan və müasir dünyanın ən qaynar nöqtələrindən, eyni zamanda strateji baxımdan ən önəmli bölgələrindən olan Qafqazda sülh prosesinin tənzimlənməsində, bölgədə uzunmüddətli, sabit sülhə nail olunmasında Prezident Heydər Əliyevin müstəsna roluna dair magistrlərin magistrlik dissertasiya işlərinin hazırlaması və uğurla müdafiə etməsi magistr hazırlığı proqramının yerinə yetirilməsində əsas şərtlərdən biri olub Azərbaycan dövlətçiliyinə birbaşa xidmət edir.

Ali təhsil müəssisələrində magistr hazırlığının məzmununa və strukturuna verilən başlıca tələb və tövsiyələr aşağıdakılardan ibarətdir:

- magistr təhsili proqramlarına daxil edilmiş fənlərin işçi proqramlarında nəzərdə tutulan tədris-metodik vasitələrin və informasiya vasitələrinin lazımi miqdarda olması;
- ali təhsil müəssisələrində müasir milli və beynəlxalq informasiya şəbəkələrinin, ilk növbədə "İnternet"in xidmətindən istifadə etməklə zəruri məlumatların toplanması və analitik təhlilinin verilməsi;

- magistrlərin dissertasiya işlərinə təyin ediləcək elmi rəhbərlərin həmin kurs üzrə proqram, dərslik və digər elmi-tədqiqat əsərlərinin müəllifi oiması şərtinin nəzərə almması;
- dissertasiyanın müdafiəsinin ali təhsil müəssisəsinin Elmi Şurasının qərarı ilə yaradılmış ixtisaslaşdırılmış şuranın iclasında aparılması, ixtisaslaşdırılmış şuralarınn yaradılma qaydalarının Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilməsi;
- magistr hazırlığı həyata keçirmək hüququ olan ali təhsil müəssisələrində magistr proqramında nəzərdə tutulan fərdi planı tam yerinə yetirmiş şəxslərə ixtisas və magistr elmi dərəcəsinin, vahid formada dövlət nümunəli magistr diplomunun verilməsi;
- magistr dissertasiyasında elmi istiqamət üçün mühüm əhəmiyyəti olan hər hansı milli və beynəlxalq əhəmiyyətli problemin yaradıcı həllinin təmin olunması, elmi-nəzəri ədəbiyyatdan səmərəli istifadə edilməsi;
- magistrlik dissertasiyasının mətninin kompüterdə 2 intervalda çap edilməsi, əlavələrlə birlikdə həcminin 75 səhifədən çox olmaması, müvafiq xülasə ilə təmin edilməsi, elmi aparat və texniki-tərtibat işlərinə ciddi riayət olunması və s.

**Qeyd:** *Magistrlər üçün dissertasiya mövzuları seçilərkən mühazirə üçün nəzərdə tutulan və bu proqrama əlavə olunan tematik bölgüdəki hər bir problem-mövzudan istifadə oluna bilər.*

*2-ci əlavə*

**"Heydər Əliyev və Qafqazda sülh prosesi" kursunun proqram materiallarının tematik planlaşdırılması**

| Sıra №-si | Mövzu | Mühazirə və ya məşğələ | Saatların miqdarı | Tarix |
|---|---|---|---|---|
| 1. | Kursun predmeti, mənbələri və öyrənilməsi vəziyyəti | mühazirə | 2 s. | |
| 2. | Sovet inzibati-amirlik sisteminin tənəzzülü. Suverenlik meyllərinin güclənməsi | mühazirə | 2 s. | |
| 3. | SSRİ-nin dağılması ərəfəsində mühazirə Qafazda ictimai-siyasi vəziyyət | mühazirə | 2 s. | |
| 4. | Qafqaz xalqlarına qarşı mühazirə Sovet imperiyasının repressiv tədbirləri. Heydər Əliyevin bu məsələlərə münasibəti və mövqeyi | mühazirə | 2 s. | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 5 | Ermənistanm Azərbaycana qarşı hərbi təcavüzü Dağlıq Qarabağda baş verən hadisələr | mühazirə | 2 s. | |
| 6. | Qafqazda suveren mühazirə dövlətlərin yaradılması. | mühazirə | 2 s. | |
| 7. | Cənubi Qafqaz dövlətləri və Müstəqil Dövlətlər Birliyi | mühazirə | 2 s. | |
| 8. | Qafqazda etnik konfliktlər. Konfliktlərin həlli istiqamə- tində Heydər Əliyevin rolu | mühazirə | 2 s. | |
| 9. | Heydər Əliyev və Qafqazda daxili dialoqun yaranması | mühazirə | 2 s. | |
| 10. | Heydər Əliyev və "Ümumi Qafqaz evi"ideyasının inkişafı | mühazirə | 2 s. | |
| 11. | Azərbaycan-Gürcüstan münasibətlərinin möhkəm- lənməsində Heydər Əliyev faktoru | mühazirə | 2 s. | |
| 12. | Qafqazda sülh və əməkdaşlı- ğın inkişafinda Heydər Əliyevin xidmətləri | mühazirə | 2 s. | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 13. | "Böyük İpək Yolu"nun bərpasında Heydər Əliyev amili. Qafqazda azad iqtisadi zona yaradılması ideyası, onun perspektivləri | mühazirə | 2 s. | |
| 14. | Heydər Əliyev və Qafqazda müli-mənəvi dəyərlərin inkişafı. "İslam sivilizasiyası Qafqazda" beynəlxalq simpozium | mühazirə | 2 s. | |
| 15. | Qafqazda müstəqillik praktik uğrunda mübarizənin başlanması | praktik məşğələ | 2 s. | |
| 16. | Tbilisi və Bakı qırğınları. Heydər Əliyevin mövqeyi | praktik məşğələ | 2 s. | |
| 17. | Qarabağ problemi. Praktik Heydər Əliyevin Ermə-nistan-Azərbaycan. Dağlıq Qarabağ münaqi-şəsinin həlli uğrunda mübarizəsi | praktik məşğələ | 2 s. | |
| 18. | Qafqazda suveren praktik dövlətlərin yaradılması | praktik məşğələ | 2 s. | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 19. | Cənubi Qafqaz dövlətlərinin Müstəqil Dövlətlər Birliyinə daxil olması | praktik məşğələ | 2 s. | |
| 20. | Cənubi Qafqaz dövlətlərinin açıq beynəlxalq sistemə inteqrasiyası | praktik məşğələ | 2 s. | |
| 21. | Qafqazda etnikkonfliktlər. Məsələnin həllində beynəl-xalq təşkilatların iştirakı | praktik məşğələ | 2 s. | |
| 22. | Heydər Əliyev və Qafqazda daxili dialoqun yaranması | praktik məşğələ | 2 s. | |
| 23. | Müasir Qafqazda islam praktik amili. "İslam sivilizasiyasi Qafqazda" beynəlxalq simpozium | praktik məşğələ | 2 s. | |
| 24. | Qafqazda sülhün inkişafında Heydər Əliyevin rolu | praktik məşğələ | 2 s. | |
| 25. | Müasir dövrdə Qafqazın kommmunikasiya dəhlizi kimi əhəmiyyətinin artması. TRASEKA proqramı | praktik məşğələ | 2 s. | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 26. | Qafqaz müasir dünya siyasətində | praktik məşğələ | 2 s. | |
| 27. | Heydər Əliyev və "Ümumi Qafqaz evi" məsələsi. Qafqazda azad iqtisadi zona yaradılması ideyası | praktik məşğələ | 2 s | |

***Cəmi: 54 saat***

***O cümlədən:***

***a) Mühazirə üçün - 28 saat***

***b) Praktik məşğələlər üçün - 26 saat***

# ƏDƏBİYYAT


1. Алиев Гейдар — Азербайджанская нефть в политике мира. IV книга. Баку, 1997.

2. Алиев Гейдар — Азербайджанская нефть в политике мира. V книга. Баку, 1998.

3. Гейдар Алиев — открывает миру Азербайджан Баку, 1998

4. Əliyev Heydər — Müstəqillik yolu. Bakı, 1997
5. Əliyev Heydər — Müstəqillik yollarında. Bakı, I-IV cildlər, 1997
6. Əliyev Heydər — Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, 2001
7. Əliyev Heydər — Müstəqilliyimiz əbədidir. cildlər. Bakı, 1997-2002
8. Əliyev Heydər — "Azərbaycan nefti dünya siyasətində". Bakı, 1997-1998, IV-V cildlər
9. Heydər Əliyev və Bakı Dövlət Universiteti. Bakı, 1997
10. Heydər Əliyev işığı - İpək yolu. Bakı, 2001
11. Əliyev İlham, Muradverdiyev Akif — Azərbaycan nefti dünya siyasətində. Bakı, 1997-1998, I-III cildlər
12. Алиев Ильхам, Мурадвердиев Акиф — Азербайджанская нефть в политике мира I-III
13. Алиев Играр — Нагорный Карабах: История. Факты. События. Баку, 1989

14. Абхазский узел //Документы и материалы, М., 1995
15. Avropa Şurası və Azərbaycan. Sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001
16. Ариель Кон США, Центральная Азия и Кавказ: проблемы и перспективы взаимоотношений – //Центральная Азия и Кавказ, 2000, № 2
17. Азербайджанская Республика в Содружестве Независимых Государств. Баку, 2001

18. Azərbaycan Respublikası: 1991-2001. Bakı,

19.Гаджиев Камалудин Геополитика Кавказа. Москва, 2001
20. Гусейнова Ирада Программа курса "История народов Кавказа" (новый и новейший период). Баку, 998
21. Гусейнова Ирада История народов Кавказа (Новый период). //Учебное пособие, Баку, 1999
22. Гусейнова Ирада Кавказ на пороге XXI века //Возрождение, 1998; №10
23. Гусейнова Ирада За мир и стабильность на Кавказе. // "Бакинский рабочий", 13 июля 2002
24. Гусейнова Ирада За атмосферу мира на Кавказе. //"Бакинский рабочий", 5 июля 2001
25.Гусейнова Ирада Роль Г.Алиева в укреплении мира и стабильности 28

в Кавказском регионе //Tarix və onun problemləri, 1998, №2

26. Гусейнова Ирада Независимое Азербайджанское государство и развитие сотрудничества на Кавказе //Журнал "Caucasica", Тбилиси, 2001, № 4

27. Гусейнова Ирада Независимый Азербайджан и вопросы регионального сотрудничества на Кавказе //Материалы Международной конференции кавказоведов, Тбилиси, 2002

28. Гусейнова Ирада Азербайджан в системе межгосударственных отношений на Кавказе //"Bakı-Tbilisi-Ceyhan neft kəmərinin beynəlxalq və regional əhəmiyyəti" mövzusunda beynəlxalq konfransın materialları, Bakı, 2002.

29. Гусейнова Ирада, Теймурова Нурана Нефтепровод Баку - Тбилиси - Джейхан как фактор стабильности на Кавказе //Beynəlxalq konfransın materialları. Bakı, 2002.

30. Гусейнов Рауф Азербайджанская Республика в зеркале полиэтничности: история, современное состояние, прогноз, рекомендации //Центральная Азия и Кавказ. 2000, № 4.

31.Qafqaz: tarix, müasirlik və geosiyasi perspekivlər. Bakı, 1998
32. Дипломатия мира. Баку, 1997.

33.Deportasiya. Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Bakı, 1998
34.Ermənistan Respublikası: terrorizm - dövlət siyasətinin tərkib hissəsi kimi (faktlar və rəqəmlər). Bakı, 2001
35. Əhmədov Elçin Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998
36. Həsənov Əli Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996) Bakı, 1998
37.Hüseynova İradə Qafqaz bölgəsində sülhün və sabitliyin möhkəmləndirilməsində Heydər Əliyevin rolu //"Azərbaycan" qəzeti, 21 may 1998
38.Hüseynova İradə Qafqaz bölgəsində sülhün və sabitliyin möhkəmləndirilməsində Heydər Əliyevin rolu //Heydər Əliyev işığı - "İpək Yolu", Bakı, 2000
39.Hüseynova İradə Dövlətçilik naminə. Bakı, 2001
40. Hüseynova İradə Qafqazla bağlı vahid elmi mərkəz yaradılmalıdır //"Palitra" qəzeti, 6-9 iyul 2001
41. İpək yolu - Beynəlxalq ictimai-siyasi jumal. Azərbaycan Universiteti, 1998, №1

42. İpək yolu - Beynəlxalq ictimai-siyasi jurnal. Azərbaycan Universiteti, 1998, №2
43. İpəkyolu - Beynəlxalq ictimai-siyasi jurnal. Azərbaycan Universiteti, 1998, №4
44. İpək yolu - Beynəlxalq ictimai-siyasi jurnal. Azərbaycan Universiteti, 2000, №1
45. История Азербайджана по документам и публикациям //Под редакцией академика З.М.Буниятова. Баку, 1990
46. Кавказ: проблемы геополитики и национально-государственные интересы России. Ростов-на-Дону, 1999
47. Кавказ - ежемесячный международный аналитический журнал, 1997, №1
48. Кавказ - ежемесячный международный аналитический журнал, 1997, № 2
49. К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. Документы и материалы, Баку, 1998
50. Кочубей Юрий "ГУУАМ и равноправное региональное сотрудничество" - "Центральная Азия и Кавказ", 2002, № 2
51. Конфликт в Нагорном Карабахе, Баку, 1990
52. Копелиани Эмиль, Квициани Джон Кавказ в XX веке. Тбилиси, 2001
53. Косиков И.Г., Косикова Л.С. Северный Кавказ. М., 1999.
54. Mahmudov Yaqub Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, 2002.

55. Mirzəyev Ramiz Heydər Əliyev və müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası. Bakı, 1999
56. Mirzəyev Ramiz "Əsrin müqaviləsi"ndən başlanan yol. Bakı, 2000
57. Mehdiyev Ramiz Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. Bakı, 2000
58. Mehdiyev Ramiz Azərbaycanın inkişaf dialekti-

kası. Bakı, 2000
59. Mehdiyev Ramiz Azərbaycan: tarixi irs və müstə qillik fəlsəfəsi. Bakı, 2001
60. Малышева Д.Б. Конфликты в развивают шея мире. Россия и СНГ. М. 1997
61. Мир Кавказа на рубеже столетий // Материалы I заседание постоянно действующего "круглого стола" по проблемам Кавказа и роли культуры в преодолении кризиса. Москва, 2001
62.Ментешашвили Автандил Исторические предпосылки современного сепаратизма в Грузии. Тбилиси, 1998

63. Меликишвили Лия. Грузия: районы возможных этноконфликтов. //"Центральная Азия и Кавказ", 2002, № 2 с.54-59

64. Миграции и новые диаспоры в послесоветских государствах. М., 1996

65. Межэтнические отношения и конфликты в послесоветских государствах. М., 2000

66. Пути мира на Северном Кавказе М., 1999

67. Россия и Закавказье: поиски новой модели общения и развития в изменившемся мире. М.,1999

68. Статистический ежегодник южно-кавказских стран (Азербайджан, Армения, Грузия). Баку, 2000

69. Sülh və təhlükəsizlik naminə. Bakı, 2000

70. XXI əsrə sülh körpüsü. Bakı, 2000

71. Xəlilov Səlahəddin. Lider. Dövlət. Cəmiyyət //"Azərbaycan Universiteti" nəşriyyatı. Bakı, 2001

72. Хоштария-Броссе Эдишер История и современность. Абхазская проблема в конфликтологическом аспекте. Тбилиси, 1996.

73. Цуциев Артур Осетино-ингушский конфликт, его предистория и факторы развития. М., 1998.

74. Чернявский Станислав Кавказский вектор Российской дипломатии //"Центральная Азия и Кавказ", 2000, № 5,

75. Чернявский Станислав Южный Кавказ в планах НАТО - "Международная жизнь". М., 1998

76. Чумалов Михаил Каспийская нефть и межнациональные отношения, М., 2000

77. Этнополитические конфликты //Международно-правовые аспекты и конституционные основы их разрешения. Тбилиси, 1997

**Qeyd: Bu problemlərlə bağlı proqram müəllifinin son illərdə bir sıra beynəlxalq elmi konfrans və simpoziumlarda etdiyi məruzələrin siyahısı:**

1. Türkiyə Respublikası Orta Doğu Universitetində keçirilən "Gender problemləri"nə həsr olunmuş beynəlxalq elmi konfransda "Qafqazda qadın və siyasət" mövzusunda məruzə. Ankara 9-13 fevral 1998-ci il
2. Gürcüstanda keçirilən "Müstəqil Azərbaycan dövləti və Qafqazda əməkdaşlığın inkişafı" beynəlxalq elmi konfransda "Qafqaz minilliklərin ayrıcında" mövzusunda məruzə. İ.Cavaxişvili adına Tbilisi Dövlət Universiteti. Tbilisi, 22-29 may 2000-ci il
3. Türkiyə Respublikasının Çanaqqala şəhərində keçirilən beynelxalq elmi simpoziumda "Qafqaz xalqlarının tarixi və müasir durumu" mövzusunda məruzə, 10-12 may 2000-ci il
4. "Qafqazda sülh və inkişaf' beynəlxalq elmi-praktik konfransda "Qafqazda sülhün və əməkdaşlığın inkişafında Azərbaycan Respublikasının siyasəti" mövzusunda məruzə. Rusiya Elmlər Akademiyası, RFXN. Moskva, 28-29 may 2001-ci il
5. Avropa Şurasının təşkil etdiyi "Demokratiya və vətəndaşlığın tədrisi" beynəlxalq seminarda "Qafqazda təhsil quruculuğu məsələləri və mədəni inteqrasiya" mövzusunda məruzə. Strasburq, 6-7 dekabr 2001-ci il "
6. "Qafqazda inteqrasiya və dezinteqrasiya (tarix, muasirlik, perspektivlər)" beynəlxalq elmi konfransda

"Müstəqil Azərbaycan və Qafqazda regional əməkdaşlıq məsələləri" mövzusunda məruzə. İ.Cavaxişvili adına Tbilisi Dövlət Universiteti. Tbilisi, 21-25 may 2002-ci il

7. Bolqarıstanda keçirilən beynəlxalq konfransda "Müstəqil Azərbaycanda təhsil islahatları" mövzusunda məruzə. Sofiya, 6-9 noyabr 2002-ci il.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**Бакинский Государственный Университет
Исторический факультет**

**Ирада Гусейнова**

# ГЕЙДАР АЛИЕВ

## И

## мирный процесс на Кавказе

# ПРОГРАММА

**Для подготовки магистров**

*Утверждено Министерством образования Азербайджанской Республики (Приказ за № 180 от 25.02.2003 года)*

**ИЗДАТЕЛЬСТВО «ТАХСИЛ»
Баку-2003**

**84.2Аз**
**Г 95**

**Автор:** **Ирада Гусейнова**
кандидат исторических наук,
доцент

Редактор: *проф.* А.И.Мухтаров
Рецензенты: *доц.* Г.Б.Усейнова
*доц.* Г.А.Алиев

Программа посвящена изучению многогранной политической деятельности Президента Азербайджанской Республики Гейдара Алиева по обеспечению мира на Кавказе, реализации идеи Общекавказского дома, региональной безопасности, стабильности, сотрудничества, интеграции Кавказа в мировое сообщество. В программе впервые в историографии рассматриваются проблемы сотрудничества между государствами и народами Кавказа, обеспечения национальной и региональной безопасности, разрешения межнациональных конфликтов на основе выдвинутой Гейдаром Алиевым концепции «Родине - мир, региону - мир, миру - мир». Программа рассчитана для историков, кавказоведов, политологов, дипломатов, обучающихся на магистерской ступени высшего образования. Программа издана на азербайджанском, русском и английском языках,

**Г95** **Гусейнова Ирада**. Гейдар Алиев и мирный процесс на Кавказе. Программа для подготовки магистров. Баку, «Тахсил», 2003, 112 стр.

**84.2 АЗ**

$$Г\frac{4702060204}{053}2003$$

© «Тахсил», 2003,

# ПРЕДИСЛОВИЕ

*"Наше самое заветное желание - это создание мира в Азербайджане, во всем Кавказском регионе и во всем мире".*

**ГЕЙДАР АЛИЕВ,**
**Президент Азербайджанской Республики**

